UOT 37.

***Nəzakət İbrahim qızı Zamanova,***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# İNFORMASİYA CƏMİYYƏTİ VƏ TƏHSİL

***Назакет Ибрагим гызы Заманова,***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО И ОБРАЗОВАНИЕ

***Nazakat Ibrahim Zamanova,***
*teacher of Azerbaijan State Pedagogical University*

# İNFORMATİON SOCİETY AND EDUCATİON

**Xülasə:** Məqalədə XXİ əsrin təhsil əsri olduğu, onun qlobal təhsilə keçməsinə, milli təhsilin qlobal təhsilə çevrilməsindən bəhs edilir. Qlobal təhsil sistemində milli mənəvi dəyərlərin qorunması, bəşəri dəyərlərdən faydalanma, inteqrasiya imkanlarından söz edilir. Dövlətin iqtisadi, siyasi, mədəni inkişafı ölkədəki təhsilin inkişafından asılı olduğu və təhsilin prioritetliyi vurğulanmışdır. İnformasiya cəmiyyətində sürətli dəyişikliyin, buna uyğun olaraq, peşə sahiblərinin hazırlanması, xüsusilə müasir müəllimlərin və tələbələrin yeniliyin birinciləri olmaları əsas olaraq göstərilmişdir. Rəqabətə davamlı təhsil müəssisələrinin inkişaf və yeniliklərə səbəb ola biləcəyi tövsiyə edilmişdir.

***Açar sözlər:*** *Təhsil, İnformasiya Cəmiyyəti, Süni intellekt, Ekspert sistemi*

**Резюме:** В статье указывается, что XXI век - это век образования, его переход к глобальному образованию и преобразование национального образования в глобальное образование. Глобальная система образования занимается защитой национальных и духовных ценностей, осуществлением человеческих ценностей и возможностями интеграции. Экономическое, политическое и культурное развитие страны зависит от развития образования в стране и подчеркивается приоритетность образования. Фундаментальное изменение в информационном обществе и, соответственно, развитие профессиональных кадров, особенно современных учителей и студентов, являются ключом к инновациям. Рекомендуется создавать и продвигать конкурентоспособные учебные заведения.

***Ключевые слова:*** *образование, информационное общество, искусственный интеллект, эксперт*

**Summary:** In the article there is indicated that, XXI century is an education century, its transition to global education and the transformation of national education to global education. The global education system deals with the protection of national and spiritual values, the enjoyment of human values, and integration opportunities. The economic, political, cultural development of the country depends on the development of education in the country and emphasized the priority of education. There is mentioned basically about the rapid change in Information Society and accordingly, the training of personnel, especially modern teachers and students who are the first to innovate. It is recommended that the competitive training institutions can lead to the development and innovation.

***Key words****: Education, Information Society, Artificial Intelligence, Expert System*

XXI əsr öz xüsusiyyətinə görə təhsil əsri kimi dəyərləndirilir. Təhsil dövlət işi, ictimai əmtəə, hakimiyyətin yetişdirdiyi məhsul, dövlətin öz xalqına göstərdiyi xidmət hesab olunur (2, s. 7). Təhsilin tarixi insanlıq tarixi qədər qədim olub, zaman və məkan hüdudlarına sığmır. Bu gün təhsil müasir texnologiyaların informasiya və kommunikasiya vasitəsilə milli çərçivədən çıxıb, bəşəri sistemə qovuşur. Milli iqtisadiyyat dünya iqtisadiyyatına çevrildiyi kimi təhsil qlo-

bal sistemə çevrilir, təhsil alanlar isə bizdən asılı olmayaraq, dünya arenasına daxil olur. Təhsil qlobal hadisələr fövqündə və həmçinin inteqrasiya imkanları vasitəsilə suveren dövlətin sərhədlərini aşır. Milli kimlik, milli dəyərləri, qoruyub saxlamaq, bu dəyərlər üzərindən, bəşəri dəyərlərdən faydalanmaq, təhsili idarə etmək dövlətin əsas prioritet məsələsidir. Qloballaşma cəmiyyətin inkişafında elə bir sosial prosesdir ki, o özündə iqtisadi, mədəni siyasi düşüncə tərzini bir indeksə gətirməklə birləşməyi tələb edir və onun inkişafında zəruri bir cəmiyyət hadisəsi kimi meydana çıxmaqla geniş miqyas alır. Bu hadisənin baş verməsinə həm zəruri bir cəmiyyət hadisəsi kimi, həm də maraqlı olan tərəflərin istək, təşkilinin nəticəsi kimi də düşünmək olar. Eyni zamanda da qloballaşmanın tarixi zərurət kimi qarşısıalınmaz bir proses olduğunu da etiraf etmək lazımdır.

İnformasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı, geniş tətbiqi nəticəsində cəmiyyətin bütün sferalarında köklü dəyişiklər baş verir, ənənəvi fəaliyyət sahələri transformasiyaya uğrayır cəmiyyətdə yeni münasibətlər, dəyərlər meydana gəlir.

Qlobal dünyanın informasiya bolluğu şəraitində təhsilin vəzifəsi dəyişir, ağlın və intellektin inkişaf etdirilməsi ön plana keçir. Dünyanın təhsil məkanında sadəcə bilik bacarıq deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributların əldə olunmasına çalışılır. Bu dəyişikliklər fövqündə təhsilin idarə edilməsi, yəni dövlətin ,cəmiyyətin və bütün iqtisadi inkişafın əsasını təşkil edən təhsil və onun idarə olunması, ən başlıca prioritet məsələdir.

Bazar və iqtisadi münasibətlərdə baş verəcək dəyişikliklər bütövlükdə istehsal və idarəçilik münasibətlərində köklü dəyişikliklər etməyə sövq edir, fərdləri və cəmiyyəti dəyişdirməyə yetir.

İnsanların kommunikasiya əlaqələri sürətlənir və daha da genişlənir, iqtisadi və sosial mədəni sahələrdə qloballaşma prosesləri dərinləşir, cəmiyyətin bütün sahələrində informasiyanın rolu dəfələrlə artır. İKT milli təhlükəsizliyin, sosial iqtisadi inkişafın, insan hüquqlarının təmin olunmasının əsas amilinə çevrilir. Baş verən bu total dəyişikliklər, formalaşan yeni münasibətlər bəşəriyyətin yeni inkişaf mərhələsinə-informasiya cəmiyyətinə keçidini şətləndirir.

İnformasiya cəmiyyəti - sivilizasiyanın inkişafının hazırkı mərhələsi olub, informasiya və biliklərin əsas maddi sərvətə çevrildiyi cəmiyyətdir. Görkəmli Amerika sosioloqu Daniel Bellin sözləri ilə desək: "**Artıq əzələ gücü və enerji deyil, informasiya əsas rol oynamağa başlayır"**, yenə Amerikalı jurnalist yazıçı Elvin Toffer informasiya cəmiyyətini belə xarakterizə edir: "Əmtəə və xidmət standartlarının informasiya uğrunda müharibələri baş verir, **əmtəə pullar əvəzinə elektron informasiya əsas mübadilə vasitəsinə çevrilir."**

İnformasiya cəmiyyətinin əsas göstəricisi ölkənin ÜDM-nun, eyni zamanda əmək ehtiyatlarının da 50%-dən yuxarı payı informasiya sektorunun payına düşür.

Bəşər tarixində misli görünməmiş, çox yüksək sürətlə artan informasiya (bilik) bolluğu, sözün həqiqi mənasında, informasiya seli yaranır.

**İnformasiya cəmiyyətində təhsil tamamilə yeni inkişaf mərhələsinə qədəm qoyur.** İnformasiya cəmiyyətində mövcud biliklər sürətlə köhnəlir və yeniləri ilə əvəz olunur. Bu da informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədardır. Ona görə də bir dəfə ali təhsil almaqla ömürboyu bacarıqlı mütəxəssis kimi çalışmaq mümkün deyil. Ömürboyu ali təhsil almaq da qeyri-mümkündür. Ona görə də hər bir mütəxəssis müstəqil şəkildə daim öz biliklərini artırmağı, yenilikləri çevik şəkildə mənimsəməyi, özünü təkmilləşdirməyi bacarmalıdır. İnformasiya cəmiyyətində tələbəyə müstəqil öyrənmə, daim biliklərini artırmaq bacarığını aşılamaq lazımdır.

İnformasiya cəmiyyətində təhsilin özünəməxsus xarakterik xüsusiyyətləri meydana gəlir. Bu xarakterik xüsusiyyətlər:

- ***çeviklik*** (tələbənin özü üçün münasib olan vaxtda, yerdə və tempdə məşğul olmaq imkanı, fənnin öyrənilməsi üçün konkret vaxtın müəyyən edilməməsi);
- ***modulluq*** (müstəqil tədris kursları dəstindən – modullardan fərdi və qrup tələbatlarına uyğun tədris planı hazırlamaq imkanı);
- ***paralellik*** (iş yerindən ayrılmadan, paralel olaraq təhsil almaq imkanı);
- ***əhatəlilik*** **(**çoxlu sayda tələbənin eyni vaxtda bir çox tədris informasiyasına (e-kitabxana, verilənlər bazası, bilik bazası və s.) müraciət

etmək, İnternet vasitəsilə tələbələrin bir-birləri və müəllimlərlə ünsiyyət qurmaq imkanı);

▪ ***qənaətcillik*** (tədris obyektlərindən və infrastrukturundan, texniki vasitələrdən, nəqliyyat vasitələrindən istifadə, dərs vəsaitlərinin çap edilməsi xərclərinə qənaət);

▪ ***texnolojilik*** (tədris prosesində informasiya-kommunikasiya texnologiya-larının ən yeni nailiyyətlərindən istifadə imkanı);

▪ ***sosial bərabərlik*** (yaşayış yerindən, sağlamlıq vəziyyətindən, maddi təminatından asılı olmadan hər kəsin təhsil alması üçün bərabər imkanların yaradılması);

▪ ***beynəlmiləlçilik*** (təhsil xidmətləri bazarında dünya təhsil nailiyyətlərinin ixracı və idxalı).

**İnformasiya cəmiyyətinin müəllimi.** Bu cəmiyyətdə müəllimin rolu dəyişir və genişlənir. Müəllimin bilik inhisarçılığına son qoyulur. Kompüter və İnternet müəllimin daşıdığı ənənəvi funksiyaların bir hissəsini öz üzərinə götürür. Müəllim daha çox konsultant, koordinator, nəzarətçi rolunda çıxış etməyə başlayır. Müəllimdən öz biliklərini daim yeniləmək, təkmilləşdirmək, texnoloji yenilikləri çevik şəkildə mənimsəmək tələb olunur. Bundan başqa, süni intellekt, ekspert sistemləri ,müəllimlik peşəsini sanki arxa plana salır, texnologiyanın köməyi ilə biliklərin təsvir modeli daha məqbul görünür. Ekspert sistemlər konkret predmet sahəsində mütəxəssis biliklərini özündə əks etdirən və istifadəçilərə qərar gəlməkdə dəstək olan mürəkkəb kompleks proqramdır. Belə qənaətə gəlinir ki müəllimlərin, həkimləri və digər peşə sahiblərinin işinin çox hissəsini texnologiya görəcək. Ümumiyyətlə peşələr rəqabətə tab gətirmək məcburiyyətindədir ki əlbəttə bu yol yüksək bilik və intellektdən keçir.

**İnformasiya cəmiyyətinin tələbəsi.** Bu cəmiyyətdə tələbədən beynəlxalq dillər, müstəqil öyrənmə, yeni biliklərə can atma vərdişləri sayəsində yaradıcılıq və intellektual potensialın artırılması, müasir informasiya-kommunikasiya texnologiyaları ilə işləmək bacarığı, müstəqil qərar qəbuletmə qabiliyyəti tələb olunur.

**İnformasiya cəmiyyətinə xas olan tədris vasitələri:**

▪ elektron tədris nəşrləri;

▪ öyrədici kompüter sistemləri;

▪ audio-video tədris materialları.

İnformasiya cəmiyyətində həmçinin ali təhsil müəssisələrinin də ağır qlobal rəqabətə tab gətirmək məcburiyyətindədirlər. Yaşamaq irəli getmək üçün özünü digərlərindən fərqləndirmək, daha güclü, daha səviyyəli, daha təhsilli olduğunu sübut etmək lazım gəlir. Bu arenada ancaq yüksək intellekt və biliklə baş etmək olar. Ali təhsil sistemimizdə rəqabətin aparıcı gücə çevrilməməsi bizi inkişafdan qoyur. Ali məktəbin uğur və nöqsanını təhlil edərkən onun tipini düzgün anlamaq məqsəd və vəzifəni nəzərdən qaçırmamaq lazımdır. Uğur olarsa hər kəsin, nöqsanları isə heç kəs, heç bir qurum öz üzərinə götürmək istəmir və beləcə problem həll olunmamaqla qalmır eyni zamanda üst-üstə yığılır. Bu cəmiyyət həm çoxlu azadlıq verir insanlara, həm də informasiya proseslərinin və texnologiyalarının inkişafı, ilk növbədə bütövlükdə cəmiyyətin deyil özəl biznesin maraqlarına xidmət edir. İlk öncə böyük güclərin böyük maraqları hər şeydən öncə gəlir. Müasir dövrdə sərvətin, pulun gücü siyasətə, orduya, vətəndaşlıq vəzifəsinə nisbətən qat-qat artıb. Lakin insan ləyaqətinin, sevgi və azadlıq hisslərinin də güclü olması sərvətlə ədalət arasında müəyyən tarazlığın əmələgəlməsinə, müvazinətin müəyyən dərəcədə saxlanmasına gətirib çıxarır. Bu tarazlığı qoruyanlar arasında dövlət media və təhsil sistemi həlledici rol oynaya bilər (2, s. 9).

Dünya universitetlərində qiymətləndirməyə baxıb, bizimkilərlə müqayisə edək. Əlbəttə birdən birə məşhur olan təhsil müəssisələrinə çatmaq asan deyil, amma imkansız da deyil. Qərb-şərq, şimal-cənub yollarının kəsişməsində yerləşməyimiz və gözəl təbiəti, tolerant insanları ilə dünya arenasında ölkəmizə tələbə cəlb edə bilərik.

Dünyada vahid təhsil modeli yoxdur, amma hamının istəyəcəyi, təhsilin keyfiyyətli, əlçatan olması, dayanıqlı təhsil sistemi, təhsilə çəkilən maliyyə qaynaqlarının daimiliyi əsas məsələdir.

Tanınmış ali təhsil müəssisələrinin qiymətləndirilməsində, məsələn, Şanxay qiymətləndirilməsi 2003-cü ildə ilk dəfə 4 göstəricidən:

-ali məktəbin Nobel mükafatı və Filds medalı almış məzunların sayı

-ali məktəbdə işləyən Nobel mükafatı və Filds medalçılarının sayı

-elmin 21 sahəsi üzrə ən çox istinad olunan tədqiqatçıların sayı

-son 5 ildə Nature və Scinence jurnallarında çap olunan məqalələrin sayı

-SCİE və SSCİ indeksli jurnal və konfranslarda nəşr olunan məqalələrin sayı. **Böyük Britaniya qiymətləndirməsi**

Times Higher Education – QS World University Rankings (QS-THES) reytinqi Böyük Britaniyanın "TSL Education Ltd" adlı təşkilatı ilə "Quacquarelli Symonds" şirkətinin birgə layihəsidir.

2004-cü ilin noyabrından ildə bir dəfə dövri olaraq nəşr olunan "The Times Higher Education Supplement" qəzetinin "Top 200 World Universities" reytinqində aşağıdakı göstəricilər əsas götürülür:

- Akademik cəmiyyətin və tədqiqatçıların universitet haqqında rəyi
- Alimlərin elmi əsərlərinin istinad indeksi
- Xarici tələbə və müəllimlərin payı

30 oktyabr 2009-cu il tarixdən etibarən isə "Times Higher Education" "QS"-lə ayrılır, Thomson Reuters ilə illik "Dünya Universitetlərinin Ranqlaşdırılması" verilənlər bazasının yaradılması üçün razılığa gəlir. Jurnal oxucuları və redaksiya heyətinin iclasında yeni qiymətləndirmə metodologiyası müəyyənləşdirir.

Əlbəttə bunlar bir təhsil ocağının qiymətləndirilmə nümunəsidir, ən azından məqsəd və hədəflərimizin qoyulmasında nümunə kimi istifadə edə bilərik. Elə bir şərait yaradılmalıdır ki, xariciləri ölkəmizə cəlb edə bilək.

Tarixi irsimizdən bizə qalan mirasa, dünyada tanınmış yurtdaşlarımıza və təhsil strategiyamızın əsas hədəfləri də imkan verir ki, biz də qabaqcıl ölkələr sırasında olaq. Məqsəd inamla qarşıya qoyularsa ,hədəfə çatmaq olar. Xaricilərin bizim ölkəmizdə oxumaları üçün fondlar yaradılmalı, qrantlar ayrılmalıdır. Buna nail olmaq üçün dövlətin, ali təhsil ocaqlarının, iri şirkətlərin və xüsusilə media və ictimaiyyətin birgə səyi gərəkdir.

Coğrafi və geosiyasi mövqeyimiz imkan verir ki, ölkəmizdə yaxın çevrəmizdə yerləşən ölkələr üçün ilk vaxtlar dəqiq fənlər üzrə daha sonra bütün ixtisaslar üzrə müəllim kadrları yetişdirək. Hər fənni tələb olunan standart bilik və müəllim peşəsinin sirlərini öyrədə bilərik. Bunun üçün bizdə yetərincə kadrlarımız var, sadəcə inamla işə başlamaq lazımdır. Əvvəlcə ingilis dilində sonralar bir çox dillərdə mütəxəssis yetişdirmək olar. Bir gün maddi sərvətlərimizin tükənəcəyini nəzərə alaraq, amma tükənməyən sərvətlərimizdən intellekt resurslarımızdan istifadə etməliyik. Eyni zamanda təhsil üçün maliyyə qaynağı da əldə etmiş olarıq.

**Problemin aktuallığı**. XXI əsrin tələblərinə uyğun olaraq yeni peşə sahiblərinin yaranması qaçılmazdır. Yeni texnologiyanın köməyi ilə müəllimlərin inhisarçılığına son qoyulur, bunların konsultant, koordinator, nəzarətçi rolu yüksəlməyə başlayır. Təhsilin inkişafı ölkənin inkişafıdır və bu inkişafa gedən yolun müasir müəllim əməyindən keçdiyi göstərilmişdir

**Problemin yeniliyi**: Müasir tələblərə cavab verən təhsil ocaqları yaradılmalı, əcnəbi tələbələri ölkəmizə cəlb etmək üçün fondlar, qrant ayrılmalı, bu işdə də dövlət, təhsil ocaqları, iri şirkətlər və bütün ictimaiyyətin birgə səyi ilə nail olmaq mümkündür.

**Problemin praktik əhəmiyyəti**: Ümumtəhsil və ali təhsil müəssisələrini idarə edənlər eyni zamanda təhsillə bağlı olaraq, təhsil işçiləri, tələbələr yararlana bilər.

## Ədəbiyyat:

1. A.O. Mehrabov. Müasir təhsilin konseptual problemləri Bakı: Mütərcim, 2010.

2. H. İsaxanlı. Müasir dünyada ali təhsil sistemində nələr baş verir və 2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə dövlət proqramı-necə olsa yaxşıdır. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2008.

3. Əliquliyev R.M., Mahmudov R.Ş. İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri // İnformasiya cəmiyyəti problemləri, 2016, № 2

4. Webster F. Theories of the Information Society, Routledge, 2007, 312 p.

5. Əliquliyev R.M., Alıquliyev R.M., Fətəliyev T.X., Həsənova R.Ş. Elmmetriya: mövcud vəziyyəti və imkanları. Bakı: İnformasiya texnologiyaları nəşriyyatı, 2013.

6. Q.L. Burrell. On the h-index, the size of the Hirsch core and Jin's A-index // Journal of Informetrics, 2007, vol.1, no.2.

7. Webster F. Theories of the Information Society, Routledge, 2007, 312 p. 5.http://www.issi-society.info/

6. http://www.arwu.org/

7. https://www.timeshighereducation.com/

**E-mail:** znazakat@mailru

**Rəyçi:** *ped.u.fəls.dok.*O.K. Alxasov

**Redaksiyaya daxil olub:** 05.12.2018